DELTA AUDIT

# "AMAL GROUP"
# Məhdud Məsuliyyətli Cəmiyyəti

**31.12.2025 TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
**MALİYYƏ HESABATLARI VƏ MÜSTƏQİL AUDİTORUN HESABATI**

CamScanner ile tarandı

# Mündəricat


Rəhbərliyin hesabatı və məsuliyyətinin bəyanı ..... 1
Müstəqil Auditorun Hesabatı ..... 4
Maliyyə vəziyyəti haqqında hesabat ..... 7
Mənfəət və zərər və digər məcmu gəlir haqqında hesabat ..... 8
Kapitalda dəyişikliklər haqqında hesabat ..... 9
Pul vəsaitlərinin hərəkəti haqqında hesabat *(dolayı metodla)* ..... 10

*Maliyyə hesabatı üzrə qeydlər:*

1. Hüquqi vəziyyət və biznes fəaliyyəti ..... 12
2. Əhəmiyyətli uçot siyasətinin xülasəsi ..... 12
3. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr ..... 16
4. Standartlar, şərhlər və mövcud standartlara düzəlişlər ..... 17
5. Torpaq, tikili və avadanlıqlar ..... 18
6. Qeyri-maddi aktivlər ..... 19
7. Torpaq, tikili, avadanlıqlarla bağlı məsrəflərin kapitallaşması ..... 20
8. Uzunmüddətli maliyyə qoyuluşu ..... 20
9. Sair uzunmüddətli aktivlər ..... 22
10. Mal-material ehtiyatları ..... 22
11. Debitor borcları ..... 22
12. Sair qısamüddətli aktivlər ..... 23
13. Pul vəsaitləri və onu ekvivalentləri ..... 24
14. Kapital ..... 24

14a. Nizamnamə kapitalı ..... 24
14b. Kapital ehtiyatları ..... 24
14c. Ötən illərin bölüşdürülməmiş mənfəəti (ödənilməmiş zərəri) ..... 25

15. Uzunmüddətli faiz yaradan öhdəliklər ..... 25
16. Uzunmüddətli alınmış borclar ..... 25
17. Təxirə salınmış vergi aktivləri / öhdəlikləri ..... 26
18. Uzunmüddətli hesablanmış öhdəliklər və ehtiyatlar ..... 27
19. Digər uzunmüddətli öhdəliklər ..... 27
20. *Ticari kreditor borclar* ..... 28
21. Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər ..... 28
22. Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər ..... 28
23. Qısamüddətli alınmış borclar ..... 29
24. Sair qısamüddətli öhdəliklər ..... 29
25. Əsas əməliyyat gəliri ..... 29
26. Digər qeyri-əməliyyat gəliri və ya (xərci) ..... 30
27. Ümumi və inzibati xərclər ..... 30
28. Gəlirdən çıxılmayan xərclər ..... 31
29. Hesabat tarixindən sonra baş vermiş hadisələr ..... 31


CamScanner ile tarandı

# Rəhbərliyin hesabatı və məsuliyyətinin bəyanı

**Rəhbərlik** 31 Dekabr 2025-ci il tarixdə başa çatan il üzrə öz hesabatını və audit olunmuş maliyyə hesabatlarını təqdim etməkdən məmnundur.

Aşağıdakı bəyanat, müstəqil auditorların hesabatında göstərilmiş auditorların rəyində olan vəzifələr haqqında müddəalarla birgə oxunmalıdır və "AMAL GROUP" MMC-nin (bundan sonra "Cəmiyyət") maliyyə hesabatları ilə əlaqədar rəhbərlik və müstəqil auditorlar arasında müvafiq vəzifə bölgüsünü əks etdirmək məqsədi daşıyır.

Rəhbərlik, Cəmiyyətin 31 dekabr 2025-ci il tarixinə bitən il üzrə maliyyə vəziyyətini, fəaliyyətinin nəticələrini, pul vəsaitlərinin hərəkətini və kapitalda dəyişikliklərini düzgün əks etdirən hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq hazırlanmasına görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarını hazırlayarkən rəhbərlik aşağıdakılara cavabdehdir:**

- Müvafiq mühasibat uçotu prinsiplərinin seçilməsinə və onların ardıcıl sürətdə tətbiqinə;
- Ağlabatan və ehtiyatlı mühakimə və təxminlərə əsaslanan ədalətli və düzgün qərarların verilməsinə və qiymətləndirmələrin aparılmasına;
- Maliyyə hesabatlarında açıqlanması və izah edilməsi şərti ilə hər hansı əhəmiyyətli kənarlaşmaların MHBS tələblərinə uyğunluğuna; və
- Cəmiyyətin təxmin edilə bilən dövr ərzində öz fəaliyyətini davam etdirməsi mümkün olmayana qədər maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanmasına.

**Həmçinin rəhbərlik aşağıdakılara görə məsuliyyət daşıyır:**

- Cəmiyyətdə effektiv və sağlam daxili nəzarət sisteminin qurulmasına, tətbiqinə və saxlanılmasına;
- Cəmiyyətin maliyyə vəziyyətini hər zaman dəqiq açıqlayan və Cəmiyyətin maliyyə hesabatlarının MHBS-in tələblərinə uyğun olduğuna təminat verən mühasibat yazılışlarının hər zaman dəqiq və düzgün saxlanılmasına;
- Mühasibat yazılışlarının Azərbaycan Respublikasının qanunvericiliyinə və mühasibat uçotu qaydalarına uyğun aparılmasına;
- Cəmiyyətin aktivlərinin mühafizə edilməsi üçün mümkün tədbirlərin görülməsinə;
- Saxtakarlıq hallarının və digər pozuntuların müəyyən edilməsinə və qarşısının alınmasına.

**Əsas Fəaliyyət:**

Cəmiyyətin fəaliyyət növü nizamnaməyə uyğun olaraq və Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olmayan, o cümlədən xüsusi icazə və ya lisenziya alınmasını tələb edən fəaliyyət növləri ilə yalnız müvafiq icazəni (lisenziyanı) aldıqdan sonra bütün fəaliyyət növləri ilə məşğul olmaqdır.



CamScanner ile tarandı

## Biznes Əməliyyatlarının İcmalı və Fəaliyyətin Gələcək İnkişaf Perspektivləri

Cəmiyyətin əsas fəaliyyətindən gəliri 31.12.2025-ci il tarixdə bitən il üzrə 48 650 409.49 AZN olmuşdur. Cəmiyyətin 31.12.2025-ci il tarixə məcmu mənfəəti 8 748 412.30 AZN, 2025-ci il üzrə xalis mənfəəti 2 371 181.18 AZN təşkil etmişdir. Rəhbərlik gələcək ilin nəticələri üçün nikbindir və Cəmiyyətin fəaliyyətini daha da təkmilləşdirmək üçün strateji planlara malikdir.

| | 2025<br>AZN | 2024<br>AZN |
|---|---|---|
| Əsas fəaliyyətindən gəlir | 48 650 409.49 | 48 945 466.53 |
| Məcmu mənfəət (zərər) | 8 748 412.30 | 12 235 978.39 |
| Məcmu mənfəətin (zərərin) xalis satışda payı % | 17.98% | 25.00% |
| Əməliyyat mənfəəti və ya (zərəri) | 2 898 192.81 | 5 282 268.36 |
| Əməliyyat mənfəətinin (zərərinin) xalis satışda payı % | 5.96% | 10.79% |
| Xalis mənfəət / (zərər) | 2 371 181.18 | 3 908 822.18 |
| Xalis mənfəətin (zərərin) xalis satışda payı % | 4.87% | 7.99% |

Cəmiyyət 2025-ci ili **2 371 181.18 AZN** xalis mənfəət (zərər) ilə başa vurmuşdur.

## Risklərin İdarə olunması və Daxili Nəzarət Sistemi:

Cəmiyyət davamlılığa, məşğulluğa və əlavə gəlirliliyə nail olmaq üçün risklərin idarə olunmasına böyük əhəmiyyət verir. Risklərin idarə edilməsinin strukturu riskləri müəyyən edir, qiymətləndirir, idarə edir və risklər haqqında ardıcıl və etibarlı əsasda hesabat verir. Əsas risklərə kredit, bazar (likvidlik, faiz dərəcəsi və xarici valyuta məzənnələri) və əməliyyat riskləri daxildir.

Rəhbərlik daxili nəzarət sisteminin mövcudluğuna və onun davamlı səmərəliliyinin yoxlanmasına cavabdehlik daşıyır. Yuxarıdakıları nəzərə alaraq, Cəmiyyət idarəetmə və informasiya sistemləri vasitəsi ilə davamlı olaraq riskləri nəzərdən keçirir.

## Nizamnamə Kapitalı:

31 dekabr 2025-ci il tarixinə Cəmiyyətin elan edilmiş və ödənilmiş nizamnamə kapitalı 100.00 manat təşkil etmişdir.
*Nizamnamə kapitalında mayaların miqdarı aşağıdakı kimidir:*

*Əliyev Eldar Azad oğlu – 100 % / 100 manat*



CamScanner ile tarandı

**Fəaliyyətin Fasiləsizliyi:**

Əlavə edilmiş maliyyə hesabatları fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlanmışdır. Hesabatları hazırlayarkən Rəhbərlik Cəmiyyətin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini həyata keçirmə qabilliyyəti qiymətləndirmiş, həmçinin bu mülahizəni qəbul edərkən Cəmiyyətin maliyyə vəziyyətini, cari niyyətlərini, əməliyyatların gəlirliliyini və maliyyə resurslarına çıxışını nəzərə almış, regional və beynəlxalq maliyyə və siyasi vəziyyətin Cəmiyyətin gələcək fəaliyyətinə təsirini təhlil etmişdir. Rəhbərlik Cəmiyyətin fasiləsizlik prinsipinə əsasən fəalliyətini davam etdirməsinə şübhə yarada biləcək, onları hadisələrlə və vəziyyətlə bağlı qeyri-müəyyənliklərin olmasına inandıracaq hər hansı sübutla qarşılaşmamışdır.

**Balans tarixindən sonrakı hadisələr:**

Rəhbərliyin fikrincə, maliyyə ilinin sonundan maliyyə hesabatlarının hazırlandığı tarixədək olan dövrdə Cəmiyyətin bitmiş maliyyə ilinin əməliyyatlarına əhəmiyyətli təsir göstərə biləcək hər hansı əhəmiyyətli və qeyri-adi əməliyyat və ya hadisə baş verməmişdir.

**Rəhbərliyin məsuliyyəti**

Azərbaycan Respublikası mülki qanunvericiliyi Rəhbərlikdən hər bir maliyyə ili üçün Cəmiyyətin ümumi vəziyyətini və maliyyə ili üçün mənfəət və zərərini düzgün və ədalətli şəkildə təqdim etmək imkanı verən maliyyə hesablarını hazırlamağı tələb edir.

Rəhbərlik təsdiq edir ki, Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman lazımi dəqiqliklə açıqlıya bilən və onların maliyyə hesabatlarının müvafiq qanunvericiliyin tələblərinə uyğun olmasını təmin edən, uyğun və adekvat mühasibat müxabirləşməsinin doğruluğuna (maintenance) əhəmiyyətli dərəcədə diqqət yetirilib. Rəhbərlik həmçinin təsdiq edir ki, maliyyə hesabatlarının ədalətli şəkildə əks etdirməsi və Cəmiyyətin maliyyə vəziyyətini və onun əməliyyatlarının nəticələrini əsaslandırılmış şəkildə təqdim edilməsi məqsədilə uyğun uçot siyasəti seçilmiş və ardıcıllıqla tətbiq edilmişdir.

31 dekabr 2023-cü il tarixinə bitən illər üzrə maliyyə hesabatları Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiq olunmuşdur.

Allahverdiyev Orxan Samir oğlu M.Y.
Direktor
**"AMAL GROUP" MMC**



CamScanner ile tarandı

**"AMAL GROUP"**
**Məhdud Məsuliyyətli Cəmiyyətinin**
**Rəhbərliyinə**

## Rəy

Biz **"AMAL GROUP" MMC-nin** (bundan sonra – Cəmiyyət) 31 dekabr 2025-ci il tarixinə *olan maliyyə vəziyyəti haqqında hesabatdan, mənfəət və zərər və digər məcmu gəlir haqqında* hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

**Bizim fikrimizcə, "Rəy üçün əsaslar" bölməsində əks etdirilmiş məsələlərin nəticələri istisna olmaqla, əlavə edilmiş maliyyə hesabatları 31.12.2025-ci il tarixinə Cəmiyyətin maliyyə vəziyyətini, həmçinin həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun olaraq bütün əməhiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.**

## Rəy üçün əsaslar

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar çərçivəsində nəzərdə tutulan məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində əks olunmuşdur.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Biz Azarbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik.



CamScanner ile tarandı

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarının tələblərinə uyğun olaraq hazırlanmasına, obyektiv şəkildə təqdim edilməsinə, eləcə də, rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır. İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi əks etdirən auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zamanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, Beynəlxalq Audit Standartlarına uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər saxtakarlıq, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Beynəlxalq Audit Standartları əsasında aparılan audit yoxlamasının bir hissəsi kimi biz audit prosesində peşəkar mühakimə və peşəkar skeptisizm prinsipi tətbiq edirik. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtalaşdırma və ya səhvlərdən irəli gələn ciddi təhrif risklərini aşkarlayır və təhlil edir, bu risklərə cavab verən audit prosedurları hazırlayır və icra edir və rəyimiz üçün əsas təşkil edəcək kafi və müvafiq dəlil toplayırıq. Saxtakarlıqdan irəli gələn ciddi təhrifləri aşkarlamama riski səhvlərdən qaynaqlanan riskdən daha yüksəkdir, belə ki saxtakarlıq əlbir olma, saxtalaşdırma, məqsədli buraxma, təhrif və ya daxili nəzarətin yetərsizliyi kimi hallarla əlaqəli olur.

- Cəmiyyətin daxili nəzarət sisteminin səmərəliliyi ilə bağlı rəy bildirmək məqsədi daşımayan, yalnız mövcud şərtlərdə müvafiq olacaq audit prosedurlarının hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxili nəzarət sistemi haqqında məlumat əldə edirik.



CamScanner ile tarandı

- Tətbiq olunan uçot siyasətinin, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların müvafiqliyini qiymətləndiririk.

- Rəhbərliyin uçotun davamlılıq prinsipindən istifadəsinin müvafiqliyinə və Cəmiyyətin fəaliyyətin fasiləsizliyi prinsipini davam etdirmə imkanına dair ciddi şübhələr yarada biləcək hadisə və ya şərtlərlə əlaqədar ciddi qeyri-müəyyənliyin olub olmaması ilə bağlı əldə edilmiş dəlillər əsasında yekun rəy bildiririk. Bizim yekun rəyimizdə ciddi qeyri-müəyyənlik mövcuddur deyilərsə, auditor hesabatımızda maliyyə hesabatlarında əlaqədar məlumatlara diqqət çəkməyimiz, yaxud da bu cür məlumatlar müvafiq olmazsa, rəyimizi dəyişdirməyimiz tələb olunur. Bizim yekun rəylərimiz auditor hesabatımızın hazırlanma tarixinədək əldə edilmiş audit dəlillərinə əsaslanır. Bununla belə, gələcək hadisə və şərtlər Cəmiyyətin işində fəaliyyətin fasiləsizliyi prinsipini poza bilər.

- Maliyyə hesabatlarının, o cümlədən açıqlanan məlumatların ümumi təqdimatı, strukturu və məzmunu, həmçinin hesabatların obyektiv təqdimatının əsasını təşkil edən başlıca əqd və hadisələri əks etdirib etdirmədiyini təhlil edirik.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlər ilə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

**02 sentyabr 2026-cı il**

**"DELTA AUDİT" MMC-nin direktoru,**
**Azərbaycan Respublikasının Auditorlar Palatasının üzvü,**
**Auditor:**

**Səmədov Elnur Əlirza oğlu**



CamScanner ile tarandı

*(Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

# Maliyyə vəziyyəti haqqında hesabat

| AKTİVLƏR | Qeyd | 2 025 | 2 024 |
|---|---|---|---|
| **Uzunmüddətli aktivlər** | | | |
| Torpaq, tikili, avadanlıqlar | 5 | 2 743 123 | 4 561 403 |
| Qeyri-maddi aktivlər | 6 | 54 004 | 54 004 |
| Torpaq, tikili, avadanlıqlarla bağlı məsrəflərin kapitallaşması | 7 | - | - |
| Asılı və birgə müəssisələrə investisiyalar | 8 | 7 294 | - |
| Təxirə salınmış vergi aktivləri | 17 | - | - |
| Sair uzunmüddətli aktivlər | 9 | 20 106 149 | 4 466 107 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **22 910 571** | **9 081 514** |
| **Qısamüddətli aktivlər** | | | |
| Mal-material ehtiyatları | 10 | 4 589 977 | 5 381 530 |
| Ticari debitor borclar | 11 | 5 216 652 | 1 168 681 |
| Sair qısamüddətli aktivlər | 12 | 4 372 854 | 7 722 593 |
| Vergi və sair məcburi ödənişlər üzrə artıq ödəmələr | 12 | - | - |
| Pul vəsaitləri və onun ekvialentləri | 13 | 1 286 012 | 574 659 |
| **Cəmi qısamüddətli aktivlər** | | **15 465 496** | **14 847 464** |
| **Cəmi aktivlər** | | **38 376 066** | **23 928 978** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **Kapital** | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 14a | 100 | 100 |
| Kapital ehtiyatları | 14b | - | - |
| Hesabat dövrünün xalis mənfəəti (zərəri) | 14c | 2 363 936 | 3 908 822 |
| Ötən illərin bölüşdürülməmiş mənfəəti (ödənilməmiş zərəri) | 14c | 2 030 418 | (1 878 404) |
| Asılı müəssisələrin bölüşdürülməmiş mənfəətində (zərərində) pay | | 7 245 | - |
| **Cəmi kapital** | | **4 401 699** | **2 030 518** |
| **Öhdəliklər** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Uzunmüddətli faiz yaradan öhdəliklər | 15 | 2 554 119 | 2 651 590 |
| Uzunmüddətli alınmış borclar | 16 | - | - |
| Təxirə salınmış vergi öhdəlikləri | 17 | - | - |
| Uzunmüddətli hesablanmış öhdəliklər və ehtiyatlar | 18 | - | - |
| Digər uzunmüddətli öhdəliklər | 19 | 602 279 | 581 935 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **3 156 398** | **3 233 525** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Qısamüddətli kreditor borcları | 20 | 7 467 380 | 6 986 958 |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 21 | - | - |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 22 | 888 046 | 302 056 |
| Qısamüddətli alınmış borclar | 23 | - | - |
| Sair qısamüddətli öhdəliklər | 24 | 22 462 544 | 11 375 921 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **30 817 969** | **18 664 935** |
| **Cəmi öhdəliklər** | | **33 974 367** | **21 898 460** |
| ***Cəmi kapital və öhdəliklər*** | | ***38 376 066*** | ***23 928 978*** |

Direktor: Allahverdiyev Orxan Samir oğlu
"AMAL GROUP" MMC

Baş mühasib:

*"03" avqust 2026-cı il*



12-30-cu səhifələrdə göstərilən qeydlər bu maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

CamScanner ile tarandı

# Mənfəət və zərər və digər məcmu gəlir haqqında hesabat

| | Qeyd | 2025 | 2024 |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | 25 | 48 650 409 | 48 945 467 |
| Satışın maya dəyəri | 25 | (39 901 997) | (36 709 488) |
| **Məcmu mənfəət** | | **8 748 412** | **12 235 978** |
| Ümumi və inzibati xərclər | 27 | (5 259 093) | (6 953 710) |
| **Faiz, vergi və amortizasiyadan əvvəlki mənfəət** | | **3 489 319** | **5 282 268** |
| Torpaq, tikili və avadanlıqlar üzrə amortizasiya | 5 | (591 126) | - |
| Qeyri-maddi aktivlər üzrə amortizasiya xərcləri | 6 | - | - |
| **Faiz, vergidən əvvəlki mənfəət (Əməliyyat mənfəəti)** | | **2 898 193** | **5 282 268** |
| Digər qeyri-əməliyyat gəliri və ya (xərci) | 26 | 56 727 | (396 241) |
| Asılı və birgə müəssisələrin xalis mənfəətindəki pay | | 7 245 | - |
| **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | | **2 962 165** | **4 886 028** |
| İl üzrə vergi faydası və ya (xərci) | 17 | (590 984) | (977 206) |
| **Hesabat dövrünün xalis mənfəəti (zərəri)** | | **2 371 181** | **3 908 822** |

Azərbaycan Respublikası Maliyyə Nazirliyi Auditor Xidməti Məhdud Məsuliyyətli Cəmiyyəti AMAL GROUP Audit Company Republic

Direktor: Allahverdiyev Orxan Samir oğlu
"AMAL GROUP" MMC

M.Y.

Baş mühasib:

*"03" avqust 2026-cı il*



12-30-cu səhifələrdə göstərilən qeydlər bu maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

CamScanner ile tarandı

# Kapitalda dəyişikliklər haqqında hesabat

| *Azərbaycan Manatı ilə / In Azerbaijani Manats* | Nizamnamə Kapitalı *Share capital* | Kapital ehtiyatları *Reserves* | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) *Retained earnings or accumulated loss* | Cəmi xalis aktivlər və ya kapital / *TOTAL EQUITY or Net Assets* |
|---|---|---|---|---|
| **01.01.2024-cü il tarixinə balans** | **100** | **-** | **627 787** | **627 887** |
| Uçot siyasətində dəyişikliklərlə bağlı düzəlişlər | - | - | - | - |
| Hesabat dövrünün xalis mənfəəti (zərəri) | - | - | 3 908 822 | 3 908 822 |
| Mənfəət və zərər haqqında hesabatda tanınmayan gəlir və xərclər | - | - | - | - |
| ***31.12.2024-cü il tarixinə kapitalın istifadəsindən əvvəl balans*** | ***100*** | **-** | ***4 536 610*** | ***4 536 710*** |
| Kapitalın maddələri arasında köçürmələr | - | - | - | - |
| Kapitalın istifadəsi (gerigötürmələr) | - | - | (2 506 192) | (2 506 192) |
| Kapital qoyuluşu | - | - | - | - |
| **31.12.2024-cü il tarixinə balans** | **100** | **-** | **2 030 418** | **2 030 518** |
| Uçot siyasətində dəyişikliklərlə bağlı düzəlişlər | - | - | - | - |
| Hesabat dövrünün xalis mənfəəti (zərəri) | - | - | 2 371 181 | 2 371 181 |
| Mənfəət və zərər haqqında hesabatda tanınmayan gəlir və xərclər | - | - | - | - |
| ***31.12.2025-ci il tarixinə kapitalın istifadəsindən əvvəl balans*** | ***100*** | **-** | ***4 401 599*** | ***4 401 699*** |
| Kapitalın maddələri arasında köçürmələr | - | - | - | - |
| Kapitalın istifadəsi (gerigötürmələr) | - | - | - | - |
| Kapital qoyuluşu | - | - | - | - |
| **31.12.2025-ci il tarixinə balans** | **100** | **-** | **4 401 599** | **4 401 699** |
| **2025-ci il üçün kapitalda dəyişikliklər** | **-** | **-** | **2 371 181** | **2 371 181** |

Direktor: Allahverdiyev Orxan Samir oğlu
"AMAL GROUP" MMC

M.Y.

Baş mühasib:

*"03" avqust 2026-cı il*



12-30-cu səhifələrdə göstərilən qeydlər bu maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

CamScanner ile tarandı

*(Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

# Pul vəsaitlərinin hərəkəti haqqında hesabat *(dolayı metodla)*

| | 2 025 | 2 024 |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Vergiqoymadan əvvəl mənfəət / (zərər) | 2 962 165 | 4 886 028 |
| *Düzəlişlər:* | | |
| Gəlir və xərclərin qeyri-pul maddələri, o cümlədən | | |
| Torpaq, tikili və avadanlıqlar üzrə amortizasiya | 591 126 | 95 577 |
| Qeyri-maddi aktivlər üzrə amortizasiya xərcləri | - | - |
| Əsas vəsaitin silinməsi üzrə xərclər | - | - |
| Əsas vəsaitlərin təqdim edilməsindən (mənfəət) və ya zərər | (56 727) | (24 970) |
| İnvestisiya gəlirləri | (7 245) | - |
| Faiz xərcləri | - | 413 746 |
| Xarici valyuta məzənnə fərqindən (gəlir) və ya zərər | - | 13 195 |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərin hərəkəti** | **3 489 319** | **5 383 575** |
| Material ehtiyatlarının (artması) və ya azalması | 791 553 | 498 598 |
| Sair qısamüddətli aktivlərdə (artma) və ya azalma | 3 349 739 | (6 475 914) |
| Ticari debitor borcların (artması) və ya azalması | (4 047 971) | (1 131 432) |
| Vergi və sair məcburi ödənişlər üzrə artıq ödəmədə (artma) və ya azalma | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklərdə artma və ya (azalma) | - | - |
| Ticari kreditor borcların artması və ya (azalması) | 480 422 | 5 389 154 |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklərin artması və ya (azalması) | - | - |
| Qısamüddətli alınmış borcların artması və ya (azalması) | - | - |
| Sair qısamüddətli öhdəliklərin artması və ya (azalması) | 11 086 623 | 3 290 151 |
| **Dövriyyə kapitalında dəyişiklik** | 11 660 365 | 1 570 556 |
| Ödənilmiş faiz xərcləri | - | (413 746) |
| Ödənilmiş vergilər | (4 994) | (877 612) |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin xalis hərəkəti** | 15 144 690 | 5 662 773 |
| | | |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Torpaq, tikili və avadanlıqların əldə edilməsi | (814 532) | (3 667 143) |
| Qeyri-maddi aktivlərin əldə edilməsi | - | - |
| Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması | - | - |
| *İnvestisiyaların əldə edilməsi* | (49) | 49 |
| Asılı müəssisələrdən əldə olunmuş dividend | - | - |
| Uzunmüddətli maliyyə qoyuluşu üzrə (artma) və ya azalma | - | - |
| Sair uzunmüddətli aktivlərdə (artma) və ya azalma | (15 640 042) | (872 009) |
| Əsas vəsaitlərin satışından əldə edilən gəlirlər | 2 098 413 | 70 339 |
| Qeyri-maddi aktivlərin satışından əldə edilən gəlirlər | - | - |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin xalis hərəkəti** | **(14 356 210)** | **(4 468 764)** |



12-30-cu səhifələrdə göstərilən qeydlər bu maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

CamScanner ile tarandı

*(Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

| | | |
|---|---|---|
| **Maliyyə fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Uzunmüddətli faiz yaradan öhdəliklərin artması və ya (azalması) | (97 471) | 1 639 040 |
| Əlaqəli şəxslərdən alacaqlar üzrə (artma) və ya azalma | - | - |
| Uzun müddətli alınmış borcların artması və ya (azalması) | - | - |
| Uzunmüddətli akkruallar və ehtiyatların artması və ya (azalması) | - | - |
| Digər uzunmüddətli öhdəliklərin artması və ya (azalması) | 20 344 | 86 929 |
| Nizamnamə kapitalının artması və ya (azalması) | - | - |
| Kapital ehtiyatlarının artması və ya (azalması) | - | (2 506 192) |
| Dividend üzrə ödənişlər | - | - |
| **Maliyyə fəaliyyətindən pul vəsaitlərinin xalis hərəkəti** | **(77 127)** | **(780 223)** |
| **Pul vəsaitləri və onların ekvivalentinin xalis hərəkəti** | **711 353** | **413 787** |
| **Pul vəsaitlərinin və onların ekvivalentlərinin ilin əvvəlinə qalığı** | **574 659** | **174 067** |
| **İl ərzində pul vəsaitlərinin artması (azalması)** | **711 353** | **413 787** |
| **Valyuta məzənnəsinin dəyişməsinin pul vəsaitlərinə və onların ekvivalentlərinə təsiri** | **-** | **(13 195)** |
| **Pul vəsaitlərinin və onların ekvivalentlərinin ilin sonuna qalığı** | **1 286 012** | **574 659** |

Direktor: Allahverdiyev Orxan Samir oğlu
"AMAL GROUP" MMC

M.Y.

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti AMAL GROUP Limited Liability Company Azerbaijan Republic

Baş mühasib:

*"03" avqust 2026-cı il*



12-30-cu səhifələrdə göstərilən qeydlər bu maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

CamScanner ile tarandı

## 1. Hüquqi vəziyyət və biznes fəaliyyəti

**1.1.** "AMAL GROUP" Məhdud Məsuliyyətli Cəmiyyəti 09.08.2018-ci il tarixdə hüquqi şəxslərin dövlət qeydiyyatına alınmış və qeydiyyat subyektinə 1305578581saylı şəhadətnamə (VÖEN) verilmişdir.

**1.2.** "AMAL GROUP" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyət növü nizamnaməyə uyğun olaraq və Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olmayan, o cümlədən xüsusi icazə və ya lisenziya alınmasını tələb edən fəaliyyət növləri ilə yalnız müvafiq icazəni (lisenziyanı) aldıqdan sonra bütün fəaliyyət növləri ilə məşğul olmaqdır.

**1.3.** "AMAL GROUP" Məhdud Məsuliyyətli Cəmiyyətinin hüquqi ünvanı:
- AZ1014, Bakı ş., Yasamal r-nu, Cəfər Cabbarlı, ev.44, Caspian Plaza 2-ci korpus,15-ci mərtəbə.

**1.4.** Cəmiyyətin Nizamnaməsinə əsasən ilkin nizamnamə kapitalı 100.00 (yüz) manat təsdiq edilmişdir.

Hüquqi şəxslərin dövlət qeydiyyatından çıxarışa əsasən Cəmiyyətin təsisçiləri və nizamnamə kapitalında mayaların miqdarı aşağıdakı kimi olmuşdur:

Əliyev Eldar Azad oğlu ..... 100.00 % / 100 manat

## 2. Əhəmiyyətli uçot siyasətinin xülasəsi

**Təqdimatın əsasları**

Hazırkı hər növ aktiv, öhdəlik, gəlir və xərc üzrə MHBS ilə müəyyən edilmiş qiymətləndirmə prinsiplərindən istifadə etməklə hazırlanmışdır. Qiymətləndirmə prinsipləri aşağıdakı uçot qaydalarında daha dolğun təsvir edilir.

**Avadanlıqlar**

Əsas vəsaitlər ilkin olaraq alış dəyərində, o cümlədən aktivlərin yerinə çatdırılmasına və onların Cəmiyyətin rəhbərliyinin nəzərdə tutduğu tərzdə əməliyyat göstərməsi üçün lazımi vəziyyətə gətirilməsinə aid bütün birbaşa xərclərdə tanınmışdır.

Bu aktivlər xərc modelindən istifadə edərək sonrakı köhnəlmə və dəyərsizləşmə zərərlərini çıxmaqla maya dəyərində ölçülür. Köhnəlmə azalan qalıq metodu ilə əsaslı tamamlanmamış işlərdən başqa torpaq, tikili və avadanlıqların hesablanmış son qalıq dəyəri çıxılmaqla maya dəyəri aşağıdakılar arasında illik dərəcələrlə silinərək tanınır:

| | | | |
|---|---|---|---|
| Binalar ..... | 7% | Nəqliyyat vasitələri ..... | 20% |
| Torpaqların yaxşılaşdırılması üzrə kapitallaşdırılmış xərclər, binalar, tikintilər və qurğular..... | 7% | Geoloji-kəşfiyyat işlərinə və təbii ehtiyatların hasilatına hazırlıq işlərinə çəkilən xərclər..... | 7% |
| Maşın və avadanlıqlar..... | 20% | Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası üzrə ..... | 25% |
| Digər əsas vəsaitlər ..... | 20% | | |
| İş heyvanları..... | 20% | | |



CamScanner ile tarandı

Köhnəlmə aktivin alındığı və ya kapitalizasiya edildiyi aydan hesablanır, aktiv silindiyi halda isə heç bir köhnəlmə həmən aya hesablanmır. Qalıq dəyərinin əhəmiyyətli hesablamaları və faydalı istifadə müddətinin hesablamaları aktivin təkrar qiymətləndirilib-qiymətləndirilmədiyindən asılı olmayaraq tələb olunduğu kimi (lakin ən azından ildə bir dəfə) yenilənir.
Əsas vəsaitlərin silinməsindən yaranan mənfəət və ya zərər silinmədən əldə edilən mədaxillər arasında fərq kimi müəyyən edilir və aktivlərin balans dəyəri "digər gəlir/(xərc) –xalis" də mənfəət və ya zərərdə tanınır.

**Qeyri-maddi aktivlər**

Qeyri-maddi aktivlər qeyri-maddi aktiv kimi tanınması üçün uyğun olan əməliyyatlar və idarə etmə üçün istifadə edilmiş alınmış proqram təminatını daxil edir. Qeyri-maddi aktivlər hər hesabat tarixində nəzərdən keçirilən kapitallaşdırma xərcləri və qalıq dəyəri modeli ilə uçota alınır.
Amortizasiya illik 10% dərəcə ilə azalan qalıq metodu üzrə tanınır və "inzibati və ümumi xərclərə daxil edilir. Alınmış kompüter proqram təminatlarının lisenziyaları müəyyən proqram təminatını almaq və quraşdırmaq üçün çəkilmiş xərclər əsasında kapitalizasiya edilir.
Kompüter proqramı təminatının texniki təminatı, yəni proqram əlavələri və digər kiçik təkmilləşdirilmiş versiyalar, həmçinin onların quraşdırılması ilə bağlı xərclər çəkildiyi zaman xərcə silinir.

**Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri**

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri müəyyən nağd pula çevrilə bilən və dəyəri əhəmiyyətsiz dəyişiklik riskinə məruz qalan maddələrdir. Maliyyə vəziyyəti haqqında hesabatda pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə banklarda cari hesab qalıqlarını əks etdirir və ilkin olaraq və sonradan ədalətli dəyərlə uçota alınır.
Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın məqsədləri üçün banklarla olan qalıqlar və nəğd pul vəsaitləri pul vəsaitlərinin ekvivalentləri hesab olunur.

**Maliyyə alətləri**

**İlkin qiymtləndirilmə və uçotdan silinmə**

Maliyyə aktivləri və maliyyə öhdəlikləri Cəmiyyətin maliyyə alətinin müqavilə müddəaları üzrə tərəfə çevrildiyi halda tanınır və ilkin olaraq ədalətli dəyər üstəgəl əməliyyat xərcləri ilə ölçülür. Maliyyə aktivləri maliyyə aktivi ilə bağlı pul vəsaitlərinin hərəkəti üzrə müqavilə hüquqlarının müddəti bitdikdə və ya maliyyə aktivi və bütün əhəmiyyətli risklər və faydalar ötürüldükdə uçotdan silinir. Maliyyə öhdəliyi ödənildiyi, dayandırıldığı, ləğv edildiyi ya da müddəti bitdiyi halda uçotdan silinir.



CamScanner ile tarandı

**Maliyyə aktivləri və maliyyə öhdəlikləri sonradan aşağıda təsvir edildiyi kimi ölçülür.**

**Maliyyə aktivlərinin təsnifatı və sonrakı qiymətləndirilməsi**

Sonrakı qiymətləndirmənin məqsədi üzrə maliyyə aktivləri kreditlər və debitor borclarına bölünür. Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilmiş maliyyə aktivlərindən başqa bütün maliyyə aktivləri maliyyə aktivinin və ya maliyyə aktivləri Cəmiyyətinin dəyərsizləşməsinə dair obyektiv sübutun olub-olmamasını müəyyən etmək üçün ən azı hər hesabat tarixində dəyərsizləşmə üzrə təhlil edilir.

Dəyərsizləşməni müəyyən etmək üçün müxtəlif amillər aşağıda təsvir edilmiş hər maliyyə aktivinin *kateqoriyası üzrə tətbiq edilir.*

Mənfəət və ya zərərdə tanınan maliyyə aktivləri ilə bağlı bütün gəlir və xərclər "inzibati və ümumi xərclər"də əks etdirilmiş, ticarət debitor borclarının dəyərsizləşməsindən başqa "maliyyə xərcləri –xalis" və ya "digər gəlir/(xərc)-xalis"də əks etdirilir.

**Maliyyə aktivlərinin dəyərsizləşməsi və inkasso edilə bilməməsi**

